# Şeir, sənət, mənəviyyat dünyası

## Nəsimi festivalı bu il ikinci dəfə keçiriləcək



Ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq festival və genişmiqyaslı mədəniyyət tədbirlərinin sırasına 2018-ci ildə daha bir layihə əlavə edildi. Ötən il sentyabrın 27-dən 30-dək ilk dəfə dahi Azərbaycan şairi İmadəddin Nəsimiyə həsr olunmuş şeir, incəsənət və mənəviyyat festivalı keçirildi. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ideya müəllifi olduğu festival Fondun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşdı.

Şairin ata yurdu Şamaxıda başlanan festival sentyabrın 28-dən Bakıda zəngin proqramla davam etdi. Heydər Əliyev Mərkəzində Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalının təntənəli açılış mərasimi oldu.

Mərkəzin foyesində festival çərçivəsində üç ekspozisiya – Leyla Əliyevanın müəllifi olduğu "Live Life" ("Canlı həyat"), Birləşmiş Ərəb Əmirliklərinin Barcil İncəsənət Fondu tərəfindən təqdim olunan "Hürufilik: incəsənət və identiklik" sərgiləri və britaniyalı bəstəkar Brayn İnonun "77 milyon rəsm əsəri" sərgisində isə musiqi və video-art instalyasiyası təqdim edildi.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva festivalın incəsənətin, mədəniyyətin inkişafına töhfə olacağına əminliyini ifadə edərək sərgilər haqqında məlumat verdi: "Biz bu festivalda Nəsimi poeziyasının ruhunu musiqi, rəqs, incəsənət vasitəsilə kəşf edəcəyik və şüurun dərinliyinə səyahət edəcəyik".

Mərasimdə jurnalistlərə açıqlama verən mədəniyyət naziri Əbülfəs Qarayev bildirdi ki, festival həm yaradıcılıq, həm də incəsənətin müxtəlif formalarını özündə birləşdirir: "Nəsimi festivalı şairin yaradıcılığına müxtəlif baxışları bir araya gətirərək onun ideyalarının hər zaman aktual olduğunu göstərir".

Açılış mərasimində dahi şairin sənət ziyasının əbədiliyini təsdiqləyən konsert proqramı təqdim edildi. Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik Orkestri və Dövlət Xor Kapellası görkəmli bəstəkar Fikrət Əmirovun "Nəsimi haqqında dastan" və İsmayıl Hacıbəyovun "Memorial" əsərlərindən parçaları ifa etdi.



Sonra musiqi gecəsi Azərbaycan əsilli britaniyalı müğənni Sami Yusufun çıxışı ilə davam etdi. İfalarında Şərqlə Qərbin vəhdətini yaratmış Sami Yusuf populyar musiqilərini səsləndirməklə yanaşı, festivalın əhəmiyyətindən də söz açaraq təşkilatçılara minnətdarlığını bildirdi, Nəsimi dühasının əbədiyaşar olduğunu vurğuladı. Proqramda daha sonra Əməkdar artist Tünzalə Ağayevanın Nəsiminin sözlərinə bəstələdiyi "Dua" mahnısı səsləndi, Milli Konservatoriyanın "Əsrlərin sədası" qədim musiqi alətləri ansamblı isə xüsusi layihə ilə tamaşaçıların könlünü oxşadı.

Xalq artisti Teyyub Aslanov, əməkdar artistlər Əliağa Sədiyev (tar), Şirzad Fətəliyev (balaban), Kamran Kərimov (nağara), beynəlxalq müsabiqələr laureatı Elnur Mikayılov və musiqi dizaynı üzrə mütəxəssis Fərhad Fərzəliyevin (elektron musiqi) təqdimatında Nəsiminin poetik dünyası muğam sənətinin və elektron musiqinin dili ilə sənətsevərlərə təqdim olundu.

Həmin gün Bakı Kitab Mərkəzində Nəsimiyə həsr olunan şeir məclisi təşkil edilmişdi. Tədbirdə həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Spasibo" və "Molçaniye" kitablarının təqdimatı oldu. Gənc şairlər Nəsiminin təsiri ilə yazdıqları şeirləri oxudular.

Festival çərçivəsində həmçinin akademik Rafael Hüseynovun və alman alimi, nəsimişünas Mixael Hessin mühazirələri də dinlənildi.

***

Sentyabrın 29-da Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalı çərçivəsində Daş Salnamə Muzeyində "Bahariyyə" adlı musiqi layihəsinin təqdimatı keçirildi.

***

Sentyabrın 30-da "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində Nəsimi festivalı ilə bir arada təşkil edilən "Daşın nəğməsi" III Beynəlxalq Heykəltəraşlıq Simpoziumu çərçivəsində yaradılan əsərlərin təqdimatı oldu. Azərbaycan, Belçika, İtaliya, Türkiyə, Hindistan, Ukrayna, İspaniya, Misir, Meksika, Rumıniya, İran, Norveç, Yunanıstan, Sloveniya, Argentina, Suriya və Gürcüstandan 20 heykəltəraş əsərlərini Nəsimi yaradıcılığına həsr etmişdilər.

Festival çərçivəsində Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində Leyla Bəyim və Yefim Avramovun müəllifi olduğu "İmmolatio" ("Qurbanvermə") tamaşasının premyerası da keçirildi. Pyes eyni ildə Azərbaycanda və Çexiyada doğulmuş iki böyük mütəfəkkirə həsr edilib. İmadəddin Nəsimi (1369-1417) və Yan Qus (1369-1415) oxşar baxışlara, ideyalara sahib olublar. Pyesdə belə bir ideya var ki, onların gələcək nəsillərə qoyub getdiyi ərməğan əqidələri uğrunda apardıqları mübarizədir.

Həmin gün Bakı Media Mərkəzində festivalın bağlanış mərasimi keçirildi. Əvvəlcə "Mərhəba!" adlı ədəbi-musiqili tamaşa təqdim olundu. Ecazkar musiqi, tamaşanın plastik həlli və Nəsimi kəlamlarının aktyorların ifasında məharətlə səsləndirilməsi şairin tükənməz poetik dünyasını bir daha təcəssüm etdirdi. Sonra Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində Nəsiminin xatirəsinə həsr edilən ədəbi müsabiqənin qalibləri mükafatlandırıldılar.

***

19-20 noyabrda isə Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycanın Rusiyadakı səfirliyinin dəstəyi ilə Moskvada Nəsimi – poeziya, incəsənət və mənəviyyat festivalı gerçəkləşdi.

Festival çərçivəsində Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) şairin büstünün (müəllif Mahmud Rüstəmov) açılış mərasimi oldu. Mərasimdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva institutun rektoru Anatoli Torkunova təşəkkürünü bildirdi: "Bizim arzularımızdan biri budur ki, Nəsimini tanısınlar, onun poeziyasını oxusunlar və bu poeziya yaşasın. Həqiqət zamanın fövqündə dayanan anlayışdır. Nəsiminin tükənməz ilham mənbəyi gözəllik, məhəbbət və təbiətdir".

Akademik Anatoli Torkunov qeyd etdi ki, Nəsiminin büstünün qoyulması universitet üçün böyük şərəfdir: "Nəsimi dünya poeziyasının ən mükəmməl nümunələri arasında yer tutmağa layiq olan əsərlərində insanın böyüklüyünü, bəşəri sevgini və şəxsiyyət azadlığını tərənnüm edib".

Ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu bu nüfuzlu təhsil ocağında Azərbaycanın böyük şairi və mütəfəkkirinin büstünün qoyulmasını iki ölkə arasında dostluğun daha bir təsdiqi olduğunu vurğuladı.

Festival çərçivəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Asiya və Afrika Ölkələri İnstitutunda "Nəsiminin mənəvi irsi Orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirildi.

Konfransda "Nəsimi festivalı: ideoloji-mədəni irsin dinamik interpretasiyası təcrübəsi", "Nəsimi və Yan Qus. Şərqlə Qərbin mədəni vəhdəti" və s. mövzularda məruzələr dinlənildi.

***

Qeyd edək ki, Heydər Əliyev Fondunun layihəsi, Mədəniyyət Nazirliyinin dəstəyi ilə bu ilin payızında ölkəmizdə ikinci dəfə Nəsimi festivalı keçiriləcək. Yeri gəlmişkən, Nəsimi festivalı Avropa Festivallar Assosiasiyasına üzv olub.